*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    9 fevral 2019-cu il № 11 (2328)    Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Xocalı soyqırımının iyirmi yeddinci ildönümü ilə bağlı Sərəncam imzalayıb

AZƏRTAC xəbər verir ki, Sərəncamda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına Xocalı soyqırımının iyirmi yeddinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsini təmin etmək tapşırılıb.

Sərəncamda deyilir ki, Xocalı soyqırımı iki yüz ildən çox müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Bu qanlı faciədən 27 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə hücuma keçmiş, bütün beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq normalarını pozaraq oraya zirehli texnika yeritmiş, şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Ermənistan silahlı qüvvələrinin mühasirəsində qalmış şəhər sakinlərindən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca öldürülmüş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.

Xocalı soyqırımını törətməklə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal etmişdir. Bunun nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır. Dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımı XX əsrdə erməni şovinizminin mahiyyətini aşkara çıxaran təkzibolunmaz tarixi gerçəklikdir.

BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa Şurası Parlament Assambleyasının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu günədək beynəlxalq hüququn normaları və prinsipləri, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmamışdır.

"Xocalıya ədalət!" kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımı ilə bağlı müvafiq qərarlar qəbul edilsə də, bəşəriyyət əleyhinə bu cür ağır cinayətə beynəlxalq miqyasda hələ hüquqi qiymət verilməmişdir.

2016-cı ilin aprel döyüşlərində Azərbaycan Ordusu torpaqlarımızın bir qismini işğaldan azad etmiş, uğurlu Naxçıvan əməliyyatı ilə 11 min hektar ərazi nəzarətimizə keçmişdir. Ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz vardır. Mövcud status-kvo qəbuledilməzdir və Ermənistanın işğalçı qüvvələrinin torpaqlarımızdan çıxarılması tələbi daim gündəmdədir.

Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

*Ön xətdən reportaj*

# Günəş dağları da isidəcəkdir!



*Günəşin şüaları hələ də buludların arxasında gizlənməkdədi. Yüksəkliyə irəlilədikcə, hərarətin azalmasını daha çox hiss edirik. Arabir yağan qar, şaxtalı hava dağlarda qışın sərtliyindən xəbər verir. Yolboyu düşünürəm: tarix yazacaq qəhrəmanlarla görüş bu soyuğu unutduracaq. Əsgərlərlə söhbətin hərarətiylə qızınacağıq.*

Bu düşüncələrlə ön xətdə, qarlı dağlarda yerləşən "N" hərbi hissəsinə çatırıq. Mayor Emin Vəliyev əsgərlərimizin döyüş əzminin yüksək olduğunu, hər an Ali Baş Komandanın əmrini gözlədiklərini bildirir. "Ali Baş Komandanımız əmr verəcəyi an silaha sarılıb torpaqlarımızı azad edəcəyik. Müasir silah və hərbi texnika ilə təchiz edilmiş, yüksək döyüş hazırlığına malik ordumuz var. Ordumuzun təminat və təchizatı xeyli yaxşılaşıb. Hərbi hissələrimizdə müasir standartlara cavab verən əsgər yataqxanaları, tibb məntəqəsi, yeməkxanalar və digər xidməti obyektlər inşa edilərək şəxsi heyətin istifadəsinə verilib. Ali Baş Komandan İlham Əliyev və Müdafiə naziri general-polkovnik Zakir Həsənov ordumuza yüksək diqqət və qayğı göstərirlər. Bu diqqət və qayğı hər bir əsgərimizin ruhunu Böyük Qələbəyə kökləyir."

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycanın və Nigeriyanın Hərbi Hava Qüvvələri arasında əməkdaşlıq imkanları müzakirə olunub

*Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov ölkəmizdə səfərdə olan Nigeriya Federativ Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı aviasiya marşalı Sadiq Baba Abubakarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Azərbaycanın və Nigeriyanın Hərbi Hava Qüvvələri arasında əməkdaşlıq imkanları və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

Nigeriyanın nümayəndə heyəti Azərbaycanın Hərbi Hava Qüvvələrinin aviabazasında da olub. Qonaqlara aviabazanın fəaliyyəti barədə ətraflı məlumat verilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

8 fevral 2019-cu il.

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım və Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq və Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Nəmirli, Şıxlar, Cəvahirli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Günəş dağları da isidəcəkdir!

(Əvvəli 1-ci səhifədə)

Zabit Emin Vəliyev onu da qeyd edir ki, ermənilər zaman-zaman Azərbaycana qarşı ərazi iddiasında olub, soyqırımlar, faciələr törədib, qadınlara, uşaqlara, qocalara olmazın işgəncələr veriblər. "Nəticədə sərhədlərimiz səngərlərə çevrilib. Bu səngərlərdə mərd, cəsur Azərbaycan oğulları dayanıb. Onların sayəsində torpaqlarımızın sinəsinə çəkilən səngərlər sərhədlərə köçürüləcək."

Dayandığımız mövqedə havanın sərtliyi daha çox hiss



olunur. Buna baxmayaraq Azərbaycan əsgəri öz xidmətini düzgün təşkil edərək Vətən torpaqlarını məsuliyyətlə qoruyur.

Səngərdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu çavuş İlham İbrahimov düşməni məhv etməyə hazır olduqlarını, əsgərlərinə daim qələbə ruhu aşıladığını bildirərək qeyd edir ki, onlara silahların taktiki-texniki xüsusiyyətlərini öyrədir, nizam-intizamlı olmağı, hərbi qayda-qanunlara riayət etməyi aşılayır. Qələbə soraüında olduqlarını deyən İlham əsgərlərin məişətinə, qida təminatına, bir sözlə, döyüşə hazırolmalarına diqqət etdiklərini vurğulayır.

- Bildiklərini öyrətməyə can atan komandirlər və öyrənməyə böyük maraq göstərən əsgərlər təbii ki, döyüşdə qələbə qazanacaq, - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu çavuş İ.İbrahimov deyir. - Bu gün tabeliyimdə olan hər bir əsgər ona təhkim olunmuş silahın taktiki-texniki xüsusiyyətlərini bilir və ondan istifadə etməyi bacarır. Fəxrlə qeyd etmək istəyirəm ki, döyüş növbətçiliyində dayanan hər bir Azərbaycan əsgəri düşmənin istənilən pozuculuq fəaliyyətinin, təxribatının qarşısını almağa qadirdir.

Azərbaycan Ordusunun şəxsi heyəti hava şəraitindən, relyefdən asılı olmayaraq Vətən torpaqlarını göz bəbəyi kimi qorumaq iqtidarındadır.

Əsgər Elməddin Abasov bildirir ki, gənc əsgər olduğu zaman ilk sıra addımlarını, silahı təhvil aldığı, döyüş növbətçiliyinə çıxdığı günü unutmayacaq. "Qürurluyam ki, güclü Azərbaycan Ordusunun sıralarında xidmət edirəm. Güclü ordunun əsgəri kimi arzum nizam-intizamlı, bacarıqlı olmaq, döyüşə atılmaq, torpaqlarımızı işğaldan azad edəcək əsgərlərin sırasında olmaqdır. Gördüyünüz kimi, silahlıyam və qarşımda düşmən var. Arzumun bir addımlığındayam. Ali Baş Komandanın döyüş əmrinin sorağındayıq".

Əsgər Natiq Allahyarov qeyd edir ki, gecələr tez-tez atəş səsləri eşidilir. Buna baxmayaraq onlar bizi qorxutmur. "Biz Vətən keşiyindəyik. Bizə inanan, güvənən, canlarını etibar edən insanlarımız, xalqımız var. Bir zamanlar bu səngərlərdə bizi qoruyanları indi qorumaq bizim vəzifəmizdir. Buna görə də öz mövqeyimizdə ayıq-sayıq, möhkəm dayanmışıq."

Əsgər Zaur Qəribov döyüş postunda yaradılan şəraitdən razı olduğunu deyir, ömrünün ən gözəl çağlarının burada keçdiyini bildirir. "Həyatda ən böyük sevgi Vətən sevgisidir. Bu sevgi heç nə ilə əvəz oluna bilməz. Bu gün mən və digər əsgər yoldaşlarım qarlı, soyuq hava olsa da, burada xidmət etməkdən duyduğumuz qüruru, fəxarət hissini sözlə ifadə edə bilmirik. Ana Vətənimiz bütöv olsun deyə burdayıq. Düşündüklərimiz, bu sevgi bizə güc-qüvvət verir."

Əsgər Zaur Qəribovun dediyi - "Ömrümün mənasını hərbi xidmətdə tapmışam" sözlərini düşünürəm. Vətənə bu qədər bağlı olan əsgər düşmən üzərinə qorxmadan, igidliklə gedəcək, torpaqlarımızı azad edəcək. Əsgər Rizvan Tağıyevin qoruduğu mövqeyə çatırıq. Komandiri bu gəncin nizam-intizamından, silahların taktiki-texniki xüsusiyyətlərinə bələd olmasından, məsuliyyətindən ağızdolusu danışmışdı. Gənc əsgər məğrur səslə Azərbaycan Respublikasına xidmət etməkdən qürur duyduğunu bildirir. "Bütün əsgər yoldaşlarımla bir məqsədimiz var - torpaqlarımızı işğaldan azad etmək. Hər gün döyüş növbətçiliyinə çıxarkən bu haqda düşünürəm. Tezliklə Ali Baş Komandanımızın əmri ilə düşündüklərimizi reallaşdırıb xalqımızın duasını çin edəcəyik."

Əsgər Elgiz Abdullayev deyir ki, ordu mühiti başqa dünyadır. "Zaman keçdikcə ayrılmaq istəmirsən silah yoldaşlarından. Nə təhlükə gəlsə, onu dəf etməyə hazırıq. Təki Vətən yaşasın."

Bütün əsgərlər bir daha məqsədlərinin işğalda olan torpaqlarımızı azad etmək olduqlarını bildirdilər. "Qisas torpaqlarımızın işğaldan azad edilməsidir. Hər birimiz bu qisasın iştirakçısı, Ali Baş Komandanın döyüş əmriylə qələbə qazanacaq əsgərlərin



sırasında olmaq istəyirik. Biz Azərbaycan əsgəri olmağın qürurunu yaşayırıq."

Xudahafizləşib yola düşürük. Arabir geriyə boylanıb qalanı xatırladan döyüş postuna baxırıq. Düşüncələrimiz də əsgərlərimizin qətiyyəti kimi dönməzdir. Nə qədər ki, bu qalanı ürəyi Vətən eşqi ilə döyünən oğullar qoruyur, bu qala alınmaz olaraq qalacaq. Qalanı qoruyan oğullar torpaqlarımızı işğaldan azad edib alınmaz qalaya çevirəcəklər!

...Qışdı.

Soyuqdu, sazaqdı.

Günəş bu dağları da hərarətinə bələyəcək. Az qalıb, lap az...

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# “Biz hər an hazır olmalıyıq ki, torpaqlarımızı işğalçılardan azad edək”



*Bu gün ölkə qarşısında duran əsas məsələlərdən biri neft kapitalının insan kapitalına çevrilməsidir. Heç şübhəsiz ki, insan kapitalının mərkəzində gənclər dayanır. Cəmiyyətin fəal təbəqəsi olan gənclərin, xüsusilə ordu gənclərinin bir araya gəlməsi dövlətin gələcək taleyi baxımından son dərəcə əhəmiyyətli rol oynayır. Bu günlərdə ordumuzun gənclərinə geniş və açıq müzakirə tribunası vermiş Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısının keçirilməsi təşəbbüsü gəncləri daha fəal, daha məsuliyyətli və daha yetkin görmək istəyən ulu öndər Heydər Əliyev ideyalarına sadiqliyin nümayişidir. Toplantı Azərbaycan Ordusu gənclərinin fikir mübadiləsi aparmaları, Azərbaycan Respublikasının Prezidentinə müraciət ünvanlamaları, öz təklif və ideyalarını səsləndirmələri üçün platformanı təmin etdi, eyni zamanda onların dövlət və cəmiyyətin həyatında fəal iştirakının göstəricisi oldu. Keçirilən toplantının və orada səsləndirilən fikirlərin Azərbaycan Respublikasının milli mənafeyinin qorunması baxımından əhəmiyyətini nəzərə alaraq gənc zabit və gizirlərimizin çıxışlarını qəzetimizin oxucularına təqdim edirik.*

**"Azərbaycan Ordusu"**



**Mayor Orxan Rüstəmov:**

Cənab nazir, hörmətli qonaqlar, toplantı iştirakçıları!

Göstərilən böyük etimada görə minnətdaram. 2 fevral günü 23 ilə yaxındır ki, ölkəmizdə gənclər günü kimi qeyd edilir. Vaxtilə Ulu Öndərimiz gənclərə müraciətlə demişdir: "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanı XXI əsrdə yaşadanlarsınız, quranlarsınız, inkişaf etdirənlərsiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun! Mən bu gün ordu gənclərinin adından böyük fəxarət hissi ilə deyirəm ki, bütün ölkə gəncləri kimi biz Azərbaycan Ordusunun gəncləri də bu gün Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək və onu canımızla, qanımızla qorumaq üçün hər bir əmrə hazırıq!

Bu əlamətdar gündə biz ordu gəncləri möhtərəm Prezidentimizə yorulmaz fəaliyyətlərində bir daha uğurlar arzulayır və Azərbaycan gəncliyinə, ordumuza göstərdiyi qayğıya görə dərin minnətdarlığımızı bildiririk!

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin iştirakı ilə Bakı Konqres Mərkəzində Gənclər Günü münasibətilə toplantı keçirildi. Bu toplantıda dövlətimizin başçısının, Ali Baş Komandanımızın gənclər üçün proqram əhəmiyyətli çıxışı hər bir Vətən əsgərinin döyüş ruhunu, vətənpərvərlik hissini daha da artırdı. Bu toplantıdan bir gün sonra ordu gənclərinin ümumrespublika toplantısının keçirilməsi heç də təsadüfi deyil. Biz buraya ona görə toplaşmışıq ki, bir daha möhtərəm Prezidentimizə, Vətənimizə, xalqımıza, dövlətimizə öz sədaqətimizi bəyan edək. Qoy dostlarımız, eləcə də düşmənlərimiz bilsinlər ki, Azərbaycanın müstəqilliyi əbədidir, sarsılmazdır.

* * *

Aprel döyüşlərinin qəhrəmanı, Prezident sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüş, Lələtəpə zirvəsinin fatehlərindən biri **olan gizir Tahir Misirxanov:**

Cənab nazir, hörmətli toplantı iştirakçıları!

Öncə mən sizi 2016-cı ilin aprelində Lələtəpə zirvəsini fəth edərək xalqımıza qələbə sevincini bəxş edən hərbi hissəmizin igid döyüşçüləri adından salamlayır, 2 Fevral Gənclər Günündə hər birinizə ən xoş arzularımızı bildirirəm. Gün o gün olsun ki, Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan digər torpaqlarımızı da düşmən tapdağından azad edək və Böyük Qələbə bayramına toplaşaq.

Mən bu gün "Azərbaycan Bayrağı" ordeni ilə ordu gənclərinin toplantısına gəlmişəm.

Biz döyüşlərə gedəndə gözümüz arxada deyildi. Biz yaxşı bilirdik ki, şəhid olsaq Azərbaycan bayrağına bükülmüş cənazəmiz böyük izdihamın iştirakı ilə Vətən torpağına uğurlanacaq, döyüşlərdə sağlamlığımızı itirsək bütün millət yaramıza məlhəm olacaq, ailələrimiz dövlətin, ölkə rəhbərliyinin daim diqqət və qayğısı ilə əhatə olunacaq, intiqamımız alınacaqdır.

Hörmətli toplantı iştirakçıları, bir neçə gün öncə dövlətimizin başçısı cənab İlham Əliyev və Birinci vitse-prezidentimiz xanım Mehriban Əliyeva yenə şəhid ailələri ilə görüşdülər. Həmin görüşdə Ali Baş Komandanımız bir daha aprel döyüşlərini xatırlayaraq dedi: "Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan güclü dövlətdir. Azərbaycan əsgəri, zabiti qorxmaz zabit və əsgərdir, peşəkardır. Göstərdi ki, Azərbaycanın güclü ordusu var və onu göstərdi ki Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayıb və barışmayacaq."

Mən xidmət etdiyim hərbi hissənin, birliyin gəncləri adından möhtərəm Prezidentimizi və



Müdafiə Nazirliyinin rəhbərliyini, eləcə də bütün toplantı iştirakçılarını əmin edirəm ki, aprel zəfərini təkrarlamağa və Qarabağa böyük qayıdışı təmin etməyə biz hər an hazırıq və buna qadirik. Aprel döyüşlərində altı tank məhv etmişəmsə, növbəti döyüşlərdə düşmən itkilərinin sayını daha da çoxaldacağam. Ordu gəncləri böyük qüvvədir və mən də fəxr edirəm ki, onların sıralarındayam.

Diqqətinizə görə sağolun!

* * *

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirməsi, Azərbaycanın Milli Qəhrəmanı, şəhid mayor Rasim İbrahimovun yolunu davam etdirən oğlu, **kapitan Nizami İbrahimov:**

Hörmətli toplantı iştirakçıları!

Qeyd olunduğu kimi, mən Azərbaycanın Milli Qəhrəmanı mayor Rasim İbrahimovun oğluyam. Atam vaxtilə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, sonralar isə Bakı Ali Ümumqoşun Komandanlığı Məktəbində təhsil alıb. Uzaq Almaniyada xidmət edib. Vətən darda olanda Füzuli rayonunda könüllü özünümüdafiə taboru yaradıb. Döyüşlərdə qəhrəmanlıq göstərib. Tuğ kəndi uğrunda gedən döyüşlərdə son nəfəsinə, son gülləsinədək vuruşub. Yaralı vəziyyətdə onu mühasirəyə alan düşmən atamın təslim olmasını tələb etsə də, atam "Azərbaycan zabiti heç vaxt düşmənə təslim olmayıb, olmayacaqdır da" deyərək qumbaranı sinəsinə sıxaraq həm özünü, həm də bir neçə düşmən zabitini məhv edib.



O vaxt mən və bacım körpə idik. Bu barədə çox-çox sonralar məlumatlanmışıq. Ağlım kəsəndən atamın yolunu davam etdirmişəm. Əvvəl Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, sonra isə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini bitirmişəm. Artıq kapitan rütbəsində hərbi aviasiyamızda xidmət edirəm. Həqiqətən də ataların yolu oğulların yoludur!

Hörmətli toplantı iştirakçıları, atamın layiq olduğu "Azərbaycanın Milli Qəhrəmanı" adı ona ölümündən 2 il sonra - Ulu Öndərimizin fərmanı ilə verilib. Bu gün doğulduğu Çilov adasında abidəsi, park və adına orta məktəb, küçə var. Haqqında kitablar yazılıb, filmlər çəkilib. Ailəmiz isə dövlət tərəfindən hər cür qayğı ilə əhatə olunub. Mən ona görə çıxış etmək qərarına gəldim ki, şəhid ailələrinə göstərilən qayğıya görə möhtərəm Prezidentimizə dərin minnətdarlığımı bildirəm. Yenidən Prezident seçiləndən sonra cənab İlham Əliyevin ilk Sərəncamı şəhid ailələri barədə oldu. Yanvarın 28-də şəhid ailələrini qəbul etdi. Şəhid vərəsələrinə birdəfəlik yardım kartları təqdim olundu, daha yeni bir Sərəncam imzaladı. Yanvarın 30-da isə Azərbaycan Respublikası Prezidenti təqaüdünün artırılması haqqında yeni Sərəncam ilə şəhid ailələrini bir daha sevindirdi. Bütün bu münasibətlərin, bu diqqət və qayğının qarşısında biz ordu gəncləri nə deyə bilərik ki?

Vətən, Səndən ötrü can verməyə cümlə hazırız,

Səndən ötrü qan tökməyə cümlə qadiriz,

Üçrəngli bayrağınla məsud yaşa!

* * *

Aprel döyüşləri zamanı ermənilərin təxribatlarının qarşısını alarkən düşmənə sarsıdıcı zərbələr endirmiş, nəticədə düşmənin 12 hərbi texnikasını və xeyli canlı qüvvəsini məhv etmiş Prezident sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuş **mayor Mirdamət Bağıyev:**

Hörmətli toplantı iştirakçıları, mən sizi aprel döyüşləri zamanı cəbhənin Ağdərə, Goranboy, Tərtər rayonları istiqamətində gedən döyüşlərdə hərb tariximizə bir çox şanlı səhifələr yazmış və bu gün də Ali Baş Komandanın döyüş əmrini səbirsizliklə gözləyən hərbi birliyimizin gəncləri adından salamlayıram. Siz də yaxşı bilirsiniz ki, müasir mütəşəkkil Azərbaycan Ordusunu yaratmaq ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Heydər Əliyevin yaratdığı müasir mütəşəkkil ordu isə məhz dövlətimizin başçısı cənab İlham Əliyevin ölkəni məharətlə idarə etmək qabiliyyəti, sərkərdəlik məharəti ilə daha da güclənmiş, qüdrətlənmiş, istənilən döyüş əmrini, hücum əməliyyatı tapşırığını yerinə yetirməyə hər an hazır olan əsl güc strukturuna çevrilmişdir. Bunu Ali Baş Komandanımız cənab İlham Əliyev özü də dəfələrlə qeyd edib. Möhtərəm Prezidentimizin bir kəlamını xatırlatmaq yerinə düşər: "Mən hərbi hissələrə tez-tez gedir, vəziyyətlə tanış oluram. Tam məsuliyyətlə deyə bilərəm ki, bu gün Azərbaycan Ordusu çox yüksək səviyyədədir. Ordumuzda peşəkarlıq, döyüş qabiliyyəti artır. Silahlı Qüvvələrdə ruh yüksəkliyi vardır. Bütün bu məsələlər bizi çox sevindirir. Azərbaycanda ordu quruculuğu prosesi bundan sonra da uğurla gedəcəkdir. Ordumuz ölkə qarşısında duran vəzifələri icra etmək üçün bütün imkanlara malikdir."

Az da olsa, Azərbaycanın dinamik inkişafını, ordumuzun gündən-günə qüdrətlənməsini görmək istəməyən qüvvələr də vardır. Lakin onlar bilməlidirlər ki, elin gözü tərəzidir. Xalq ağı qaradan, yaxşını pisdən seçib-ayırmağı çox yaxşı bilir. Azərbaycanın sükanı, Ordumuzun sükanı etibarlı əllərdədir. Bizi inkişaf yolumuzdan heç bir qüvvə döndərə bilməz. Bizim Ordu nəinki ilbəil, hətta günbəgün inkişaf edir, daha da möhkəmlənir. Biz döyüşçülərə nə lazımdır? Əlbəttə, xidmət şəraitinin yaxşı olması, sosial müdafiəmizin həllinə ədalətli münasibət, hər kəsə xidmətinə görə qiymət verilməsi, namuslu əməyin mükafatsız, cinayətin cəzasız qalmaması. Bu isə demək olar ki, tam müsbət həllini tapıb.

Mənim orduda xidmət illərim cənab İlham Əliyevin prezidentlik dövrünə təsadüf edir. Dəfələrlə Ali Baş Komandanımızla görüşmüşəm. Ancaq aprel döyüşlərinin ildönümündə möhtərəm Prezidentimizin qəbulunda olduğum günü ömrüm boyu unutmayacağam. Həmin görüşdə dövlətimizin başçısı bir daha bizi təbrik etdi, böyük fəxrlə dedi ki, aprel döyüşləri Ermənistanın özləri haqqında uydurduqları miflərini, əfsanələrini darmadağın etdi və göstərdi ki, bu gün əgər bölgədə güclü ordu varsa, o da Azərbaycan Ordusudur. Yaşasın, Azərbaycan Ordusu, Yaşasın, Azərbaycan!

* * *



Günnüt zəfərinin qazanılmasında müstəsna xidmətləri olan Naxçıvanın qəhrəman müdafiəçilərindən biri **kapitan Əlqəm Gözəlov:**

Cənab nazir, hörmətli toplantı iştirakçıları! Mən sizə dünyaya Heydər Əliyev kimi böyük şəxsiyyət, qüdrətli sərkərdə bəxş etmiş, Naxçıvanın müdafiəsində ayıq-sayıq dayanaraq Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edən Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyətinin səmimi salamlarını gətirmişəm. Naxçıvan Vətənimizin ayrılmaz bir hissəsidir və tarixcə qədim, mənəviyyatca zəngin, eləcə də günü-gündən yeniləşən bu torpaqda xidmət etməkdən hər bir Azərbaycan gənci böyük qürur duyur.

**(Ardı 4-cü səhifədə)**

# "Biz hər an hazır olmalıyıq ki, torpaqlarımızı işğalçılardan azad edək"

**(Əvvəli 3-cü səhifədə)**

Naxçıvanda Milli Ordumuzun ilk təməl daşı qoyulub. Onun baş memarı ulu öndərimiz Heydər Əliyevdir. Azərbaycan Ordusunda ilk dəfə Naxçıvanda hərbi hissələrə Döyüş Bayraqları təqdim edilib. Həmin bayraqları möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev təqdim edib. Naxçıvanda ilk diviziya, ilk Əlahiddə Ümumqoşun Ordu yaradılıb. Onun dayaqları biz gənclərik. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra üçrəngli Dövlət bayrağımız ilk dəfə Naxçıvanda qaldırılıb, ilk dəfə Azərbaycan zabiti Ulu Öndərimizə Azərbaycan dilində Naxçıvanda məruzə edib. 20 Yanvar faciəsindən bir gün öncə ilk şəhidlər Sədərək uğrunda döyüşlərdə verilib. Naxçıvanlı gənclər respublikamızın bütün bölgələrindəki hərbi hissələrdə fəxrlə xidmət etdikləri kimi, Azərbaycanın bütün bölgələrindən olan gənclər də Naxçıvanda şərəflə xidmət edirlər. Ulu Öndərimizdən miras qalmış azərbaycançılıq məfkurəsi ən kəsərli silahımızdır. Biz bu torpağın, Odlar diyarının övladlarıyıq, gəncləriyik və bizim bir Vətənimiz var. O da azad, müstəqil, yenilməz, günü-gündən çiçəklənən, güclü və qüdrətli ordusu ilə fəxr etməyə haqqı olan doğma Azərbaycandır.

Hörmətli toplantı iştirakçıları, respublikamızın hər yerində olduğu kimi, Naxçıvanda da gənclər, xüsusilə ordu gəncləri daim diqqət mərkəzindədir və gənclərə dövlət qayğısı burada da ən yüksək səviyyədədir.

Mən Əlahiddə Ümumqoşun Ordunun yaranmasından, onun qısa zamanda güclü bir orduya çevrilməsindən, hərbi qulluqçular üçün yaradılan yüksək xidməti şəraitdən, hərbçilərin sosial müdafiəsi, mənzil şəraitinin yaxşılaşdırılması üçün görülən işlərdən, keçirilən irimiqyaslı təlimlərin uğurlu nəticələrindən, Naxçıvanda keçirilən hərbi paraddan və s. danışıb vaxtınızı almaq istəmirəm. Bütün bunların hamısını siz yaxşı bilirsiniz.

Mən iştirakçısı olduğum Günnüt zəfəri haqqında bir neçə kəlmə demək istərdim. Bu uğurlu əməliyyat düşmənlərimizi elə lərzəyə salıb ki, çətin onlar özlərinə gələ bilsinlər. Qısa bir vaxt ərzində mühüm strateji yüksəkliklərin ələ keçirilməsi, 11 min hektar ərazinin nəzarətə götürülməsi və bu əməliyyat zamanı yalnız bir nəfərin - əsgər Adil Tatarovun şəhid olması bəlkə də dünya hərb tarixində görünməyən hadisədir. Günnüt zəfərinin qazanılmasında xüsusi fərqlənən hərbi hissənin Döyüş bayrağını biz Bakıya gətirərək Azadlıq meydanında nümayiş etdirdik. Və əminəm ki, möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, işğal altında olan torpaqlarımız da tezliklə azad olunacaq, Şuşada, Xankəndidə, Laçında və yolumuzu gözləyən digər Vətən torpaqlarında da bayrağımız dalğalanacaq. Həmin bayraqlar da Azadlıq meydanına gətirilərək qələbə paradımızda nümayiş etdiriləcəkdir. Mən bu arzu, bu istək, bu inamla da çıxışımı sona yetirirəm.

Diqqətinizə görə sağ olun!

* * *

Yunan-roma güləşi üzrə Avropa və dünya çempionu, "Tərəqqi" medallı, Əməkdar idman ustası **leytenant Həsən Əliyev**:

Ulu öndər Heydər Əliyev ölkəmizdə idmanın və bədən tərbiyəsinin inkişafına həmişə böyük qayğı göstərib. İdmana, eyni zamanda insanlarda vətənpərvərlik hissini yüksəldən amillərdən biri kimi baxan Ulu Öndərimiz ordu və idman məsələlərindən danışarkən demişdir: "Ordumuz işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi üçün hər zaman döyüşə hazır olmalıdır. Bunu təmin etmək üçün gənclərimiz fiziki cəhətdən sağlam olmalı, bədən tərbiyəsi və idmanla məşğul olmalıdır!". Azərbaycan Ordusunun idmançıları ölkəmizin şanlı idman salnaməsinə bir çox parlaq səhifələr yazmış, olimpiadalarda, mötəbər idman yarışlarında Azərbaycan bayrağını qaldırmış, himnimizi səsləndirmişlər.



Müdafiə Nazirliyinin rəhbərliyi orduda idman və bədən tərbiyəsinin inkişafına, kütləviliyinə ciddi fikir verir. Şəxsi heyətin fiziki tərbiyəsi daim diqqət mərkəzindədir. Bu sahədə Mərkəzi Ordu İdman Klubunun xidmətləri danılmazdır. Azərbaycan yığma komandalarının bir çox üzvü bizim təmsilçilərimizdir. Respublikamıza gətirilən Olimpiya, Dünya, Avropa və başqa beynəlxalq yarışların bir çox medalları bizim payımıza düşür. Bir faktı nəzərinizə çatdırmaq istəyirəm ki, Mərkəzi Ordu İdman Klubu 1994-cü ildən Beynəlxalq Hərbi İdman Şurasının fəal üzvüdür və bu fəallığa görə 135 dövlət arasında son 10 il ərzində onluqda öz nüfuzumuzu qoruyub saxlamışıq. Bizim hərbçi-idmançılarımız Beynəlxalq Hərbi İdman Şurasının xətti ilə keçirilən 5 ümumdünya Hərbi İdman Oyunlarında uğurla çıxış edərək 78 qızıl, 64 gümüş və 98 bürünc medal qazanıblar.

Azərbaycanda idmanın inkişafına göstərilən dövlət qayğısı, şəxsən cənab İlham Əliyevin bu sahəyə də xüsusi önəm verməsinin, Azərbaycanın idman ölkəsinə çevrilməsinin nəticəsidir ki, Beynəlxalq İdman Şurasının qərarı ilə paytaxtımızda cüdo, güləş, boks idman növləri üzrə hərbçilərin dünya çempionatları, dünya futbol kuboku keçirilib. Azərbaycan Ordusunu təmsil edən hərbçilərdən ibarət yığma futbol komandamızın dünya futbol kubokunda qazandığı uğur Azərbaycanın futbol tarixində ən yüksək nailiyyətdir.

Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, Azərbaycan bayrağı dünyada rəsmən iki dəfə qaldırılır. Bu bir dəfə Azərbaycanın dövlət başçısı hər hansı bir ölkəyə gələndə olur və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adı qazanarkən Azərbaycanın himni səslənir, Azərbaycanın Dövlət bayrağı qaldırılır. Bu toplantıda böyük inamla deyirəm ki, biz Azərbaycanın Dövlət bayrağını həm idman sahəsində dünyada, həm də zəfər yürüşümüzdə Qarabağda əzəmətlə dalğalandıracağıq. Çünki bizim cənab İlham Əliyev kimi Ali Baş Komandanımız, sizin kimi gənclərimiz var.

* * *

Hərbi Dəniz Qüvvələrində xidmət edən gənclərimizin nümayəndəsi **baş leytenant Ariz Qəhrəmanov:**

Cənab nazir, hörmətli toplantı iştirakçıları!

Digər qoşun növləri kimi Hərbi Dəniz Qüvvələrimiz də Ümummilli Liderimizin sayəsində yenidən formalaşmış və mütəşəkkil qüvvəyə çevrilmişdir.

Xəzər dənizinin Azərbaycan sektorunda dövlətimizin iqtisadi və strateji maraqlarını qorumaq kimi mühüm vəzifə biz hərbi dənizçilərə həvalə edilmişdir. Döyüş gəmilərinin və qüvvələrinin cəlb olunması ilə keçirilən son irimiqyaslı təlimlər bir daha göstərdi ki, hərbi dənizçilərimiz istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır və qadirdirlər.

Mən Hərbi Dəniz Qüvvələrinin fəaliyyəti barədə xeyli danışıb vaxtınızı almaq istəmirəm. Ancaq bir faktı nəzərinizə çatdırıram ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Puta əsas baza məntəqəsinin və bazada xidmət edən, əksəriyyəti gənclərdən ibarət zabit, miçman və çavuşların sosial-məişət və mənzil şəraitinin yaxşılaşdırılması üçün tikilən yaşayış binalarının və digər hərbi obyektlərin açılışında şəxsən iştirakı hərbi dənizçilərin böyük ruh yüksəkliyinə səbəb olmuşdur.

Hörmətli toplantı iştirakçıları, 2015-ci ildən başlayaraq hər il Beynəlxalq Ordu Oyunları çərçivəsində yarışlar keçirilir. Artıq iki ildir ki, "Dəniz kuboku" beynəlxalq müsabiqəsi Azərbaycanda təşkil olunur. Bu yarışlarda Rusiya, Qazaxıstan, İran İslam Respublikaları Hərbi Dəniz Qüvvələrinin komandaları öz güclərini sınayırlar. Hörmətli Prezidentimiz cənab İlham Əliyevin yarış iştirakçılarına təbrik ünvanlaması bu müsabiqələrin nə qədər böyük əhəmiyyət kəsb etdiyini bildirir. Gərgin keçən yarışlarda Azərbaycan Hərbi Dəniz Qüvvələrinin 1-ci yer tutması tarixi hadisədir.



Bu il də həmin yarışlar Xəzər dənizinin Azərbaycan sektorunda keçiriləcəkdir. Mən dövlətimizin başçısını, Müdafiə Nazirliyinin rəhbərliyini və hörmətli toplantı iştirakçılarını, sizi əmin edirəm ki, hərbi dənizçilərimiz bundan sonra da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gələcək, digər qoşun növləri ilə birlikdə hərb tarixinə parlaq səhifələr yazacaqlar.



* * *

2018-ci ildə keçirilən hərbi paradın iştirakçısı, gənc pilotumuz **kapitan Məzahir Səfərov:**

Hörmətli toplantı iştirakçıları! Mən çıxışımın əvvəlində bir tarixi günü xatırlamaq istəyirəm. 25 avqust 2001-ci il. Həmin gün indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin ən müasir standartlara uyğun yeni proqramlarla hazırlanmış məzunlarının ilk buraxılışı oldu. Bu tarix ona görə əlamətdar idi ki, məzun buraxılışına həsr olunmuş mərasimdə Ulu Öndərimiz iştirak edərək məzunlara xeyir-dua verirdi və Türkiyə Hərbi Hava Qüvvələrinin "Türk Ulduzları" eskadrilyası ilk dəfə olaraq Bakı səmasında nümunəvi uçuşlar edirdi. Heç kimin xəyalına belə gəlməzdiki, qısa zaman kəsiyində Azərbaycanın milli şahinləri də Bakı səmasında daha çətin pilotaj nümunələri göstərərək xalqımızı və şəhərimizin qonaqlarını təəccübləndirəcəklər. Siz özünüz də şahidsiniz ki, artıq Azərbaycan şahinləri, milli pilotlarımız əsl peşəkarlıq xüsusiyyətlərinə malikdirlər. Ötən il keçirilən hərbi paradlarda biz gücümüzü, peşəkarlığımızı bir daha nümayiş etdirdik. Artıq Ulu Öndərimizin arzuları gerçəkləşmişdir. Unudulmaz Heydər Əliyevin dedikləri bu kəlamlar bu gün də aktualdır: "Mən sevinirəm ki, indi milli şahinlərimiz var. Sevinirəm ki, bizim şahinlərimiz Azərbaycan səmasını daim qorumağa, Azərbaycanın ərazisini qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər".

Hörmətli toplantı iştirakçıları, fəxr edirəm ki, mən də Azərbaycanın milli səma şahinlərindən biriyəm və aprel döyüşləri zamanı Lələtəpə istiqamətində erməni işğalçılarına qarşı əks-hücum əməliyyatlarında qəhrəmanlıqlar göstərərək şəhidlik zirvəsinə ucalmış milli pilotlarımız: "Azərbaycan Bayrağı" ordenli zabitlər Təbriz Musazadə, Urfan Vəlizadə və Əbu Bəkr İsmayılovun intiqamını almaq, işğal altındakı torpaqları erməni faşistlərinin qanlı caynağından azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyir və zəfər yürüşünə hazır olduğumuzu bəyan edirik!

* * *

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin **kursantı Tapdıq Mansurov:**

Cənab nazir, hörmətli qonaqlar, toplantı iştirakçıları, bəlkə də burada hamıdan gənc mənəm.

İlk olaraq onu demək istəyirəm ki, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almaq, yeniyetmə vaxtlarından əsgər çəkməsi, uniforma geyinmək, uşaqlıq qayğılarından, valideynlərdən uzaq düşmək heç də asan deyil. Bunu bu məktəbin - xalqımızın haqlı olaraq "Heydər Əliyev məktəbi" adlandırdığı Hərbi liseyin şinelindən çıxanlar daha yaxşı bilərlər. Elə deyilmi, cənab nazir?! Axı Siz də bizim kimi yeniyetmə vaxtlarınızda taleyinizi bu məktəblə bağlamısınız, Siz də kursant olmusunuz. İlk vaxtlar çətin olsa da, mən indi bu məktəbdən bir addım da kənara atmaq istəmirəm.

Mən sərkərdə olacağam. Qətiyyətlə deyirəm! Ulu öndərimiz Heydər Əliyev 1971-ci ildə bu məktəbi elə bu arzuyla, bu məqsədlə yaradıb ki, Azərbaycan gəncləri hərbi peşələrə yiyələnsinlər, sərkərdə olsunlar, Vətəni ləyaqətlə qorusunlar.

Müəllimlərimiz deyir ki, Heydər baba sovet dövründə bu məktəbi çox çətinliklə yaradıb. O vaxt Moskva, SSRİ rəhbərliyi milli kadrların peşəkar hərbçi kimi yetişməsinə imkan vermirdi. Deyirdilər ki, uşaqlarınızı gələcəkdə zabit kimi görmək istəyirsinizsə, onları Suvorov, Naximov məktəblərinə göndərin. Lakin Heydər Əliyev bu analoqu olmayan Hərbi liseyin dağılmasına imkan vermədi və onu soyuq küləklərdən qoruyaraq 30 yaşına çatdırdı. Yubileyində şəxsən iştirak etdi. Səhhətində problemlər yaranmasına baxmayaraq həmin yubiley gecəsində də Ulu Öndərimiz əsl qəhrəmanlıq nümunəsi göstərdi.



Hərbi liseyimizin yetirmələrindən 20 nəfərdən çoxu general, admiral ali hərbi rütbələrinə yüksəlib, 10-dan çox Milli Qəhrəmanımız var. İndi Hərbi Liseyimiz möhtərəm Prezidentimizin tapşırığı ilə əsaslı surətdə təmir edilir. Maddi-texniki, tədris-təlim bazası genişlənir. Yeni qərargah binası, kursant yataqxanası, tibb məntəqəsi və digər obyektlər tikilir, yeni idman şəhərciyi yaradılır və s. Bütün tikinti-təmir işləri şəxsən hörmətli Müdafiə nazirimizin rəhbərliyi altında həyata keçirilir.

Hörmətli toplantı iştirakçıları, biz Heydər Əliyev arzuları, cənab İlham Əliyevin ümidləri və ordumuzun gələcəyiyik. Mən Heydər Əliyev Məktəbində - Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almağımla çox böyük qürur duyuram. Tezliklə ali hərbi təhsil alıb zabit olacağım günü səbirsizliklə gözləyirəm. İnşallah, o gün mənə də qismət olacaq.

Diqqətinizə görə sağolun!

# Milli Qəhrəman Mübariz İbrahimovun anım tədbirləri keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən fevralın 7-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü münasibətilə hərbi hissələrdə və xüsusi təyinatlı təhsil müəssisələrində anım mərasimləri keçirilib. Hərbi qulluqçular Mübariz İbrahimovun Şəhidlər xiyabanındakı məzarını ziyarət edərək önünə gül dəstələri qoyublar.*





Vətənimizin azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin xatirələri bir dəqiqəlik sükutla yad edilib, məzarları üzərinə tər güllər düzülüb.

Tədbirlərdə çıxış edənlər Milli Qəhrəmanın həyat yolundan danışıb, onun göstərdiyi şücaət və qəhrəmanlıqdan bəhs ediblər. Qeyd olunub ki, Mübariz qısa ömür yaşasa da, canını Vətən yolunda fəda etməsi ilə özündən sonra gələn gənclərə örnək olacaq şanlı bir yol və ad-san qoyub gedib.

Tədbir çərçivəsində məktəblilər Milli Qəhrəmanın xidmət etdiyi hərbi hissədə olub, Müdafiə Nazirliyinin hərbi qulluqçuları isə Mübariz İbrahimovun ailəsinə baş çəkərək valideynləri ilə görüşüblər.

* * *

Dünyanın ən qədim və mədəni xalqlarından olan Azərbaycan xalqı Vətənin azadlığı naminə canını fəda edən oğul və qızlarımızla daim öyünmüş, Vətəni yadelli düşmənlərdən qoruyan igid qəhrəmanları ilə həmişə fəxr etmiş, onları əbədi xatirə kimi qəlblərində yaşatmışdır. Qədirbilən xalqımız öz qəhrəmanlarını bir an belə unutmur, şəhidlik kimi mənəviyyat zirvəsinə qovuşan igidləri ilə qürur duyur, onların əziz xatirəsini ürəklərdə hər zaman yaşadırlar.

Qısa, lakin şərəfli ömür yaşayan qəhrəman oğullarımızdan biri də 2010-cu il iyunun 18-də düşmənlə əsl cəngavər kimi döyüşüb qəhrəmancasına həlak olan Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovdur. İndi hər bir azərbaycanlı onunla fəxr edir.

Fevralın 7-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü münasibətilə Müdafiə Nazirliyinin bir qrup nümayəndəsi ikinci Fəxri xiyabanda Milli Qəhrəmanın məzarını ziyarət etdi.

Mərasimdə polkovnik Aydın Əyyubov çıxış edərək anım günü qeyd edilən Mübariz İbrahimovun öz şərəfli ölümü, qəhrəmanlığı ilə Azərbaycan əsgərinin nəyə qadir olduğunu bütün dünyaya sübut etdiyini bildirdi. Vətən, torpaq sevgisinin, vətənpərvərlik ruhunun onu şəhidlik zirvəsinə ucaltdığını diqqətə çatdırdı. "Vətəni sevən insan onun uğrunda canını da sevə-sevə verməyə hazırdır. Mübariz İbrahimov da Vətənin belə mərd oğullarından biri idi. Mübariz ölümün gözünə dik baxaraq, Vətən sevgisinin heç nə ilə əvəz olunmadığını bir daha sübut etdi. O, bu şücaəti ilə Azərbaycan gəncliyinə başucalığı gətirdi. Bu gün hər bir gənc Mübarizin qəhrəmanlığından örnək alır, nümunə götürür. Azərbaycan əsgəri Mübarizləşən ruhda xidmət edir. Onun qəhrəmanlığını heç zaman unutmur, əziz xatirəsini qəlbimizdə əbədi yaşadırıq. Bu igid gizirin göstərdiyi rəşadət ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən yüksək dəyərləndirildi, ölkəmizin müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında xidmətlərinə görə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü."

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı Rafael Qasımov kursantlar adından çıxış edərək bildirdi ki, anım gününü qeyd etdiyimiz Mübariz İbrahimov bizim üçün mərdlik, qəhrəmanlıq simvoludur. "Şanlı tariximiz qəhrəmanlıq səhifələri ilə zəngindir. Mübariz kimi torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalanların xatirəsini daim yüksək tutmaq, onları örnək bilmək, yarıda qalmış arzularını davam etdirmək hər birimizin şərəf borcudur. Biz Vətənimizi sevib, onun uğrunda canından keçən şəhidlərimizi heç vaxt unutmur, onlarla fəxr edir, haqdan gələn bir səslə deyirik: Biz sizdən öyrəndik qəhrəmanlığı!"

Tədbirdə Azərbaycanın qəhrəman oğlu Mübariz İbrahimovun igidliyindən danışıldı, həyat yoluna nəzər salındı, göstərdiyi şücaət və qəhrəmanlıqdan bəhs edildi.

* * *

Qəhrəmanlar unudulmur...

Qəhrəmanlıq tarixləşdiyi gündən tarixin cığırdaşı olur...

Qəhrəmanlığın mahiyyəti torpaqsevərlikdi, vətənsevərlikdi; vətənsevərlik və qəhrəmanlıq kəlmələri məzmun, ruh baxımından bir-birini o qədər həssaslıqla tamamlayır ki, vətənsevərə qəhrəman demək istəyirsən. Desən, səni kimsə qınamaz...

Tarix təkcə ötənlər-keçənlər deyil, tarix həm də ötənləri-keçənləri fərqləndirmə vasitəsidi. Fərqləndirmələr sırasında qəhrəmanlıq qüdrətində olan heç nə yoxdu; tarix qəhrəmanlıq yaratmır, qəhrəmanlıq tarix, tarixlər yaradır. Belə tarixlər sonralar milli-mənəvi dəyərlərin yönümünü də müəyyənləşdirir.

Mübariz Ağakərim oğlu çağırışçı idi...

Mübariz İbrahimov əsgər oldu...

Mübariz İbrahimov həqiqi hərbi xidmətdən sonra ürəyinin hökmüylə gizir hazırlığı kursunda təhsil aldı...

Torpaqlarımızın işğalı onun



da qürurunu tərpədirdi, titrədirdi. Əli ilə Bəxtiyarın şəhidliyindən üzü bu yana şəhid olanlarımızı anırdı, qırılan talelərə acıyırdı - yanırdı, dağıdılan kəndlərimizi xatırlayırdı - qəlbi qana dönürdü, Xocalı faciəsi onun dərd ocağıydı - torpaqlarımız işğaldan azad edilənə kimi bu ocaq sönməyəcəkdi. Düşüncələrində bir döyüş çırpınırdı. Bu döyüşün əsgəri olmağı qərara almışdı gizir Mübariz İbrahimov. Bu döyüş özünün son döyüşü də ola bilərdi. Çəkinmədi. Bu döyüşə getdi. Ata-anasına, ata-anasının timsalında Vətənə son məktub yazaraq getdi. Hər kəlməsində Vətən sevgisi duyulan bu məktub Vətənə xidmətin mahiyyəti kimi oxunur, həmişə də belə oxunacaq.

Tam qələbəyə - Böyük Qələbəyə kimi də, Böyük Qələbədən sonra da:

"Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu eləməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam ağlamayın, əksinə sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür, Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin".

Mübariz İbrahimov döyüşə getdi. Tək getdi, ürəyində Vətən boyda bir sevgiylə getdi. Ürəyində şəhidlərimizin sayı qədər qəzəb közüylə getdi, Xocalı faciəsinin ağrı-acılarına təsəlli olacaq bir qələbə əzmiylə getdi...

Azərbaycan Ordusunun giziri Mübariz İbrahimov və Ermənistan ordusunun səngərlərindəki, dayaq məntəqəsindəki hərbi qulluqçuları. 2010-cu ilin 18 iyununda Ermənistanı vahimələndirən, ermənilərin təkcə canını deyil, ruhunu da titrədən bu döyüş vətənsevərliklə işğalın döyüşüdü və bu döyüşün işğalın bağrını yardığına zərrəcə şübhə olmadı...

Gizir Mübariz İbrahimov bu döyüşdə şəhid oldu...

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Mübariz İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi...

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun anım günü bir vaxtlar xidmət etdiyi, son döyüşünə getdiyi mövqedə də qeyd olundu...

Polkovnik-leytenant Natiq Cavadov bu tədbirin mahiyyətindən söz açaraq qeyd etdi ki, qəhrəmanlıq xalqın ruhudur. Bugünkü tədbirdə Tərtər və Bərdə rayonlarının mədəniyyət işçiləri, Şikar Şikarov adına Tərtər rayon 5 saylı orta məktəbin 11-ci sinif şagirdləri, Tərtər musiqi məktəbinin şagirdləri də iştirak edirlər.

Məktəblilərin Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xidmət etdiyi hərbi hissədə, mövqedə xidmət edən əsgərlərlə görüşü ürəkləri coşdurdu. Bu görüş bu günün əsgərlərinə, şəhidlərə, bu sıradan Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun ruhuna ehtiramıydı. Baş leytenant Firuz Abbasov qəhrəmanın ömür yolundan, döyüş yolundan, şücaət, qətiyyət, qəhrəmanlıq yolundan danışdı.

1988-ci ilin 7 fevralında sabahın bir qəhrəmanının, bir qəhrəmanlığın doğulduğunu kimsə bilməzdi. 22 ildən sonra bilindi. Bu gün bu tədbirdə iştirak edən şagirdlərin də Vətəni Mübariz kimi sevəcəyinə əminik, Mübariz kimi xidmət edəcəklərinə inanırıq. Onlar qəhrəmanın son yataq yerinə tər güllər düzməklə and içdilər elə bil: Torpaqlarımız işğaldan azad ediləcək!

Şagirdlərin baxışlarında çırpınan duyğuları sezmək, hiss etmək çətin deyildi. Qələbəyə çağırış idi bu duyğular. Qəhrəmanın ruhunun çağırışına qoşulmaq istəyiydi...

Əsgərlər qonaqları əmin etdilər ki, burada Mübarizin arzuladığı kimi xidmət edirlər, onun ruhuna göz aydınlığı olacaq qələbəni qazanacaqlar. Ali Baş Komandanın döyüş əmrinə hazırdırlar...

Qonaqların təqdim etdiyi bədii hissənin də qayəsi qəhrəmanlığıydı. İfa edilən nəğmələri bir nəqarət birləşdirirdi: Torpaqlarımız işğaldan azad ediləcək!...

Mübarizlər həmişə anılacaq, Mübarizliklə qoşa anılacaq!..

**Baş leytenant Məhəmməd NƏSİRLİ,**
**leytenant Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunda növbəti qəbul keçirilib

*Kursa qəbul olmuş namizədlər ulu öndər Heydər Əliyev guşəsini ziyarət ediblər. Mərasimdə çıxış edən Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev dinləyiciləri Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından təbrik edib.*



Akademiyanın rəisi bildirib ki, bu il Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunda 15 dövlət təşkilatının nümayəndələri təhsil alacaqlar. "Son illər ölkəmizin, o cümlədən Silahlı Qüvvələrin həyatında, xüsusən də hərbi təhsil sistemində bir sıra islahatların həyata keçirilməsi ilə yaddaqalan olub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin imzaladığı Sərəncama əsasən hazırlanmış "Azərbaycan-2020: gələcəyə bir baxış" İnkişaf Konsepsiyası hərbi təhsil sahəsində də bizim qarşımızda yeni vəzifələr qoymuşdur.

Bildiyiniz kimi, Hərbi Akademiyanın əsas vəzifələri dövlət orqanlarında çalışan vəzifəli şəxslərə respublikanın müdafiəsi və təhlükəsizliyi ilə bağlı hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsi, ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanması və hərbi iş sahəsində elmi tədqiqatların aparılmasını təmin etməkdir.

Bu vəzifələrin yerinə yetirilməsində Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursu xüsusi yer tutur".

General-leytenant Heydər Piriyev onu da qeyd edib ki, Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunda tədris prosesi beş ay müddətində olmaqla, hər ilin fevral-iyun aylarında (21 tədris həftəsi) mühazirələr, seminarlar və praktiki məşğələlər formasında həyata keçirilir. Eyni zamanda təhsil müddəti ərzində akademik kursun dinləyicilərinə - xarici siyasət və milli təhlükəsizliyin əsasları; strategiya və müdafiənin planlaşdırmasının əsasları; müdafiə resurslarının idarə edilməsinin əsasları; dövlət müdafiəsinin idarə edilməsinin əsasları mövzu blokları üzrə mühazirələr oxunur. "Akademik Kursun tədris proqramı çərçivəsində Azərbaycan Respublikasının Milli Məclisində, müxtəlif nazirlik və təşkilatlarda, ali təhsil müəssisələrində çalışan yüksək ixtisaslı mütəxəssislər akademik kursda müxtəlif mövzularda mühazirələr oxuyurlar. Güc nazirliklərinin mütəxəssisləri kursların tədris proqramına uyğun olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması və təşəkkül tapması, onların strukturu, qarşısında duran vəzifələr haqqında və digər mövzularda akademik kursun dinləyiciləri qarşısında çıxışlar edirlər.

"Akademik kursun tədris proqramı çərçivəsində Milli Məclisin komitə sədrləri tərəfindən kursun dinləyiciləri qarşısında silsilə mühazirələrin oxunması bir ənənə halını alıb. Ötən tədris illərində Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin və Əmək və sosial siyasət komitəsinin sədrləri akademik kursun tədris proqramında nəzərdə tutulmuş müvafiq mövzular üzrə dinləyicilər qarşısında mühazirələrlə çıxışlar ediblər.

Akademik kursun tədris proqramı çərçivəsində dinləyicilər Xarici İşlər Nazirliyinin, Müdafiə Nazirliyinin, Sərhəd Qoşunlarının, Daxili Qoşunların və Fövqəladə Hallar Nazirliyinin hərbi hissələri, Müdafiə Sənayesi Nazirliyinin müəssisələri, respublikanın iri yanacaq və energetika kompleksləri, strateji əhəmiyyətli obyektləri və mədəni-tarixi yerləri ilə tanış olurlar", - deyə Hərbi Akademiyanın rəisi sözünə davam edib.

General-leytenant H.Piriyev çıxışında NATO-nun "Hərbi təhsilin inkişaf etdirilməsi Proqramı" çərçivəsində Silahlı Qüvvələrin Hərbi Akademiyasının xarici dövlətlərin hərbi təhsil müəssisələri ilə əməkdaşlığı məsələlərinə də toxunub.

"Hər il Amerika Birləşmiş Ştatlarının Hərbi Dəniz və Müştərək Qüvvələr Qərargahı Kolleclərinin, Almaniya Federativ Respublikasının Müdafiə Universitetinin professorları hərbi strategiya, milli təhlükəsizlik, qlobal təhlükəsizlik mühiti, liderlik və digər mövzularda akademik kursun dinləyiciləri qarşısında mühazirələrlə çıxış edirlər.

Bu proqram çərçivəsində NATO-ABŞ ekspert qrupu ilə Hərbi Akademiyada "Hərbi Oyunun qiymətləndirilməsi" mövzusunda işçi görüş keçirilib, qonaqlar Hərbi Akademiyada keçirilən Hərbi Oyunun gedişini yaxından izləyiblər.

Xarici dövlətlərin, o cümlədən Türkiyə Respublikası, Rumıniya və Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin zabitlərinin Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunda təhsil alması Hərbi Akademiyanın beynəlxalq əməkdaşlığının göstəricisidir".

Akademiyanın rəisi sonda qeyd edib ki, Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün müasir tələblərə cavab verən ali hərbi təhsilli komandir və qərargah zabitlərinin hazırlanması, hərb elminin təşkili və inkişaf etdirilməsi, ölkənin müdafiəsinin və təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Silahlı Qüvvələrlə mülki dövlət qurumlarının birgə fəaliyyətinin təşkili məsələləri bundan sonra da Hərbi Akademiyanın fəaliyyətinin əsas istiqamətləri olacaqdır.

**Polkovnik**
**Telman ŞAHBAZOV,**
**Silahlı Qüvvələrin**
**Hərbi Akademiyası**

## Komanda-qərargah təlimi keçirilir

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına əsasən, Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində kompüter dəstəkli komanda-qərargah təlimi başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimdə əsas məqsəd komandirlərin və qərargah zabitlərinin döyüşün təşkili və aparılması zamanı yaranmış müxtəlif şəraitdə mövcud qüvvələrdən və ehtiyatlardan praktiki istifadə etməsidir.

Təlimə cəlb olunan heyət simulyasiya sistemləri vasitəsilə döyüş fəaliyyətləri zamanı bölmələrin fasiləsiz, bacarıqla və qətiyyətlə idarə edilməsi vərdişlərini, bilik və bacarıqlarını təkmilləşdirir.

## "Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müsbət mövqe nümayiş etdirmir"

Ermənistan hakimiyyəti Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hər hansı müsbət mövqe nümayiş etdirmir.

Bu fikri AZƏRTAC-a açıqlamasında "Penta" Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri, ukraynalı politoloq Vladimir Fesenko söyləyib. Onun sözlərinə görə, Ermənistanın yeni hakimiyyəti, baş nazir N.Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müsbət bəyanat verməyib.

"Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı güzəştə gedəcəyini görmürəm. O Ermənistanın siyasi kursunun dəyişməyəcəyini də bəyan edib. Ola bilsin ki, perspektivdə Paşinyanın mövqeyində dəyişiklik olsun. Əgər o Ermənistanın daxili siyasətində uğur qazana bilsə, ola bilər, münaqişənin həllində də hansısa mövqe ortaya qoysun", - deyə Fesenko əlavə edib.

Politoloq bildirib ki, regionda sülhün əldə olunması üçün Dağlıq Qarabağ münaqişəsinin həlli önəmlidir.

# Bütün ixtisaslar üzrə zabit təkmilləşdirmə kursları keçirilir



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq əmrinə əsasən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində bütün ixtisaslar üzrə zabit təkmilləşdirmə kursları keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, kurslar hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin və xidməti keyfiyyətlərinin yüksəldilməsi, praktiki bacarıqlarının inkişaf etdirilməsi, daha müasir hərbi peşə vərdişlərinə yiyələnməsi məqsədilə həyata keçirilir.

Kursun sonunda hava hücumundan müdafiə, artilleriya, maddi-texniki təminat, kəşfiyyat, rabitə, mühəndis-istehkam, topoqrafiya, şəxsi heyətlə iş üzrə yekun imtahanlarını müvəffəqiyyətlə verəcək hərbi qulluqçulara sertifikatlar təqdim olunacaq.

# Azərbaycan hərbçiləri beynəlxalq qış təliminə hazırlaşırlar



Beynəlxalq qış təlimində iştirak etmək üçün Türkiyə Respublikasına yollanan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları təlimə hazırlıq məşqlərinə başlayıblar.

Təlimdə iştirak edəcək hərbi qulluqçularımızın bir qrupu Qars şəhərindəki poliqonda, digər bir qrupu isə Kayseri şəhərində paraşütçü komandolar hazırlayan mərkəzdə məşqlərə cəlb ediliblər.

Sərt iqlim və çətin relyef şəraitində döyüş əməliyyatlarının aparılması tapşırıqlarını yerinə yetirəcək heyətlər məşqlərdə fəallıqları ilə seçilirlər. Məşqlər zamanı bölmələrin ərazidə məskunlaşma qabiliyyətləri və təchizatları da yoxlanılır.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Azərbaycan Ordusunda "Kompüter şəbəkəsi inzibatçılığı kursu" keçirilir

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində "Kompüter şəbəkəsi inzibatçılığı kursu" keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qoşunların idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədi ilə keçirilən kursda dinləyicilərə Azərbaycan Ordusunun silahlanmasına qəbul edilmiş müasir rabitə vasitələrinin üstünlükləri və tətbiqi mexanizmi haqqında ətraflı məlumat veriləcək.

Kurs iştirakçılarına kompüter bacarıqlarının artırılması, şəbəkə avadanlıqlarının istismarı üzrə nəzəri biliklərin və praktiki təcrübənin təkmilləşdirilməsi, həmçinin digər mövzulara dair mühazirələr oxunacaq.

Məşğələlərin keyfiyyətli təşkilini təmin etmək məqsədilə müasir tədris-laboratoriyasının bazasından istifadə olunur. Kursu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara sertifikatlar veriləcək.

# Fəal gənclərin bir qrupu ilə veteranların görüşü olub

*Respublika Veteranlar Təşkilatı gənclərin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onların milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda yetişmələri üçün ardıcıl iş aparır. Müntəzəm surətdə gənclərlə müxtəlif yerlərdə görüşlər keçirir, Azərbaycanın şanlı tarixi, döyüş ənənələri və gənclər gününün hərtərəfli təbliğində bilik və təcrübəsini əsirgəmir.*

AZƏRTAC xəbər verir ki, bu fikirlər fevralın 7-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında keçirilən fəal gənclərlə görüşdə səsləndirilib.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək bildirib ki, gənclərin zəngin həyat təcrübəsinə malik veteranlardan öyrənmək, veteranların isə gənc nəslin nümayəndələrinə tövsiyələrini vermək baxımından belə görüşlərin önəmi böyükdür. Hazırda Azərbaycan əhalisinin təqribən üçdə birini gənclər təşkil edir, onlar xalqına, dövlətçiliyinə sədaqətli, vətənpərvər, yüksək mənəvi və əxlaqi keyfiyyətlərə malik insanlardır. O, Azərbaycanın ictimai-siyasi həyatında, müxtəlif sahələrdə qazanılan yüksək nəticələrdə gənclərin yaxından iştirakından danışaraq deyib: "Azərbaycanda müasir gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər Heydər Əliyev gənclərin potensialının üzə çıxarılması, onların təhsilli, geniş dünyagörüşünə malik vətənpərvər insanlar kimi yetişməsinə mühüm əhəmiyyət verirdi. Ümummilli Lider ölkənin inkişafında gənclərin iştirakını zəruri sayır, onları mühüm vəzifələrə irəli çəkirdi. Ulu öndər Heydər Əliyevin gəncliyə göstərdiyi qayğının təzahürü kimi, fevralın 2-si respublikamızda Azərbaycan Gəncləri Günü elan olunub. Azərbaycan gəncləri 1997-ci ildən bəri hər il bu günü ən yüksək səviyyədə qeyd edirlər. Bütün bunlar gənclərin təşkilatlanmasına, hərtərəfli formalaşmasına şərait yaradıb".

C.Xəlilov qeyd edib ki, daim Azərbaycan gəncliyinin yanında olan Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 2 Fevral Azərbaycan Gəncləri Günü münasibətilə təşkil olunan respublika toplantısında iştirakı, dövlətimizin başçısının gənclərin fəaliyyətinə yüksək diqqət verməsi, eləcə də Azərbaycan gəncliyinin qarşısında duran əsas hədəf və vəzifələri dəqiq müəyyənləşdirməsi, Prezident İlham Əliyevin müxtəlif sahələrdə böyük uğurlar qazanan, fədakarlıq göstərən gəncləri təltif etməsi gənc nəslin bütün nümayəndələrini daha böyük nailiyyətlər qazanmağa həvəsləndirməklə yanaşı, onlara əsl bayram sevinci yaşatdı.

O, Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələrin yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatında əhəmiyyətini xüsusi vurğulayıb. Eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələrin Azərbaycan gənclərinin uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynadığını qeyd edib.



Ehtiyatda olan polkovnik diqqətə çatdırıb ki, hazırda ordu sıralarında xidmət edən, müxtəlif sahələrdə çalışan, təhsil alan gənclərimizin hərbi vətənpərvərlik ruhunda yetişməsi bizi sevindirir. Torpaqlarımızın işğaldan azad edilməsi yönündə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ardıcıl iş aparılır. Azərbaycanın güclü ordusunun formalaşdırılması, müharibə əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, veteranlarımıza göstərilən qayğı bunun əyani təzahürüdür. Aprel döyüşləri və Naxçıvanda həyata keçirilən hərbi əməliyyatlar ordumuzun gücünü, döyüş əzmini aydın şəkildə nümayiş etdirdi. Bütün bunlar Azərbaycanın ərazi bütövlüyünün təmin ediləcəyinə inamımızı daha da artırır.

Nərimanov rayon İcra Hakimiyyəti başçısının müavini İlqar Mirzəyev, rayon gənclər və idman idarəsinin rəisi Nəcəf Novruzov, Gənclər və İdman Nazirliyinin gənclərlə iş sektorunun müdiri Əli Məmmədov, İkinci Dünya müharibəsi veteranları adından çıxış edən Fatma Səttarova, İsmayıl Fərəcov və başqaları belə tədbirlərin nəsillər arasında əlaqələrin vacibliyindən, gənclərimizə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan, Azərbaycan həqiqətlərinin dünyada təbliğində gənclərin rolundan, könüllülük hərəkatında gənclərin iştirakından, onların rəşadət və mərdliyindən söhbət açıblar. Natiqlər gəncləri Vətəni sevməyə, onu müdafiə etməyə, işğalçılardan azad etməyə hər zaman hazır olmağa çağırıblar.

Sonda bir qrup şəxs Respublika Veteranları Təşkilatının yubiley medalları və fəxri fərmanlar ilə təltif olunub.

# "Belarusun Azərbaycana "Polonez" tipli komplekslər satması Rusiyanı narahat etmir"

"Azərbaycan bu gün təkcə bizimlə deyil, digər tərəfdaşlarla da, xüsusən Belarusla əməkdaşlıq edir. Bu, bizi narahat etmir".

AZƏRTAC xəbər verir ki, bunu "Kommersant" qəzetinə müsahibəsində Rusiyanın Hərbi-Texniki Əməkdaşlıq üzrə Federal Xidmətinin direktoru Dmitri Şuqayev bəyan edib.

Azərbaycana Belarusdan "Polonez" tipli komplekslərin satışı barədə suala cavab verən D.Şuqayev qeyd edib ki, Rusiya sağlam rəqabətin tərəfdarıdır. O əlavə edib: "Azərbaycan bu gün təkcə bizimlə deyil, digər tərəfdaşlarla da, xüsusən Belarusla əməkdaşlıq edir. Bu, bizi narahat etmir: birincisi, biz sağlam normal rəqabətin tərəfdarıyıq, ikincisi, hər iki ölkə MDB-nin üzvüdür. Belə olan halda biz buna qarşı necə çıxa bilərik? Əgər bütün bunlar sağlam düşüncə çərçivəsində baş verirsə, biz heç kimə heç nə diktə edə bilmərik və bunu etmək də istəmirik".

D.Şuqayev Türkiyə ilə hərbi-texniki əməkdaşlıqdan da bəhs edib. Qeyd edib ki, bu gün Türkiyənin sifarişlər portfeli 1 milyard dollardan çoxdur. 2017-ci ildə Ankara ilə S-400 zenit-raket komplekslərinə dair kontrakt imzalanıb və 2019-cu ilin payızınadək öhdəliklər yerinə yetiriləcək. Rusiya, həmçinin texnikanın, o cümlədən aviasiya texnikasının birgə hazırlanması üzrə Türkiyə ilə əməkdaşlıq edir.

*Heç kim unudulmur*

# Şəhid Adil Tatarovun xatirəsi doğulduğu kənddə yad edilib

*2018-ci ilin may ayında Naxçıvanda həyata keçirilən uğurlu hərbi əməliyyat zamanı şəhidlik zirvəsinə ucalmış əsgər Adil Tatarovun 20 yaşının tamam olması münasibəti ilə silsilə tədbirlər keçirilib. Tədbirlərdə Müdafiə Nazirliyi, Ağstafa rayon İcra Hakimiyyətinin rəsmiləri, rayon ictimaiyyətinin nümayəndələri, müharibə veteranları, hərbi qulluqçular, kənd sakinləri, təhsil aldığı kənd tam orta məktəbinin müəllim və şagirdləri, şəhidin ailə üzvləri iştirak ediblər.*




Əvvəlcə Azərbaycanın ərazi bütövlüyünün qorunmasında göstərdiyi şəxsi igidlik və şücaətə görə "Vətən Uğrunda", "Şücaətə görə" medalları ilə təltif olunmuş əsgərin məzarı və kənd şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə qırmızı qərənfillər düzülüb.

Ağstafa rayonu Qıraq Kəsəmən kənd tam orta məktəbində keçirilən mərasimdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.

Çıxış edən müəllim Turan Yaqubbəyov bildirib ki, bu kəndin gəncləri tarix boyu hərbi peşələrə böyük maraq göstərib, Vətənə, dövlətə, xalqa sədaqətlə xidmət ediblər. Yüz il öncə onlarla gənc könüllü olaraq Xalq Cümhuriyyəti Ordusunun, eləcə də Qafqaz İslam Ordusunun sıralarına qoşularaq Bakıda, Qarabağda erməni daşnaklarına və bolşeviklərə qarşı müharibədə əsl qəhrəmanlıq nümunələri göstəriblər.

Böyük Vətən müharibəsi illərində qəhrəmanlıq ənənələri ilə seçilən Qıraq Kəsəmən kəndinin neçə-neçə igid oğlu faşizm üzərində qələbənin qazanılmasında canlarından keçərək Vətən tarixinə şanlı səhifələr yazıblar.

Ötən əsrin sonlarından başlayaraq bu günə kimi qıraqkəsəmənlilər Qarabağ uğrunda döyüşlərdə fəal iştirak edərək Vətən qarşısında əsgəri borclarını şərəflə yerinə yetirirlər. Kəndin 7 nəfər yetirməsi Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub. Onlardan biri də əsgər Adil Tatarovdur.

Nəzərə çatdırılıb ki, əsgər A.Tatarov yaşasaydı, onun 20 yaşı tamam olacaqdı. Ancaq o, elə bu yaşda, bu görkəmdə mübariz bir gənc kimi xatirələrdə, ürəklərdə yaşayacaq, gələcək nəsillərə nümunə olacaqdır.

Müdafiə nazirinin tapşırığına əsasən, tədbirdə iştirak etmək üçün Ağstafa rayonuna ezam edilmiş Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani tədbir iştirakçılarını salamladıqdan sonra vurğulayıb ki, fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı, ertəsi gün isə Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirildi. Hər iki toplantıda yenə də şəhidlərimiz ehtiramla yad edildi.

Qeyd olunub ki, dövlətimizin başçısı şəhid ailələrinə həmişə ali səviyyədə diqqət və qayğı göstərir, onların bütün problemləri vaxtında müsbət həllini tapır. Təkcə son bir ay ərzində şəxsən Prezident İlham Əliyevin iştirakı ilə bir neçə respublika səviyyəli tədbirlər reallaşıb, sərəncamlar verilib. Bütün şəhid ailələri kimi əsgər Adil Tatarovun da ailəsi daim diqqət mərkəzindədir.

Uğurlu Naxçıvan əməliyyatından bəhs edilərkən diqqətə çatdırılıb ki, son illər həm dövlətimizin, həm xalqımızın, həm də Azərbaycan Ordusunun həyatında bir çox əlamətdar hadisələr olmuşdur. Məhz Günnüt zəfəri 2016-cı ilin aprel zəfərinin davamıdır. Bu uğurlu əməliyyatlar dövlətimizin iqtisadi gücünü, ordumuzun qüdrətini, peşəkarlığını, işğal altındakı torpaqları da azad etməyə hər an hazır və qadir olduqlarını, xalqın həyat tərzinin xeyli yaxşılaşdığını, xalqın ordumuza inamını göstərir.

Şəhid Adil Tatarovun iştirakçısı olduğu uğurlu əməliyyat zamanı uzun illərdir ki, düşmən nəzarətində qalan strateji yüksəkliklər azad edilib, 11 min hektardan çox ərazi nəzarətə götürülüb. Bu, düşmənə böyük sarsıdıcı zərbədir və təcavüzkar Ermənistan Azərbaycan Ordusunun bu qələbəsindən hələ də özünə gələ bilmir.

A.Qurbani əlavə edib ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev Gənclər Gününə həsr olunmuş respublika toplantısında da Azərbaycan Ordusunun xidmətlərini yüksək qiymətləndirdi və böyük inamla "Azərbaycan əsgəri, zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır", - dedi. Azərbaycan əsgəri torpaqlarımızı düşmən əsarətindən xilas etmək, bayrağımızı Xankəndi, Şuşa, Laçında və digər əzəli yurd yerlərimizdə dalğalandırmaq arzusu ilə yaşayır.



Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi Barat Vüsal şəhidlərə göstərilən ehtiramı düşmənə maddi və mənəvi cəhətdən vurulan sarsıdıcı zərbə kimi dəyərləndirərək bildirib ki, şəhidin adı əziz tutulmasa, xatirəsi yad edilməsə, adı əbədiləşdirilməsə, döyüşlərdə sağlamlığını itirənlər, şəhid ailələri dövlət səviyyəsində hər cür qayğı ilə əhatə olunmasa, Vətən uğrunda canlarından keçməyə hazır olan igid oğullar yetişdirmək mümkün deyil. Bu iş isə ölkəmizdə prioritetdir və Azərbaycan bu istiqamətdə bütün ölkələrə örnək ola bilər.

Şair Barat Vüsalın "Mən ayağa qalxacam, yarama torpaq tökün" misraları ilə tamamlanan şeiri alqışlarla qarşılanıb.



Ağstafa rayon İcra Hakimiyyəti aparatının rəsmisi Əziz Məsmalıyev, rayon təhsil şöbəsinin işçisi, yazıçı-publisist Əli Cəfəroğlu, Azərbaycan Yazıçılar Birliyinin nümayəndəsi, aprel şəhidləri haqqında bir neçə kitabın müəllifi Güləmail Murad, müharibə iştirakçısı Mirzabit Hacıyev çıxış edərək şəhid adının yüksəkdə durduğundan, şəhidliyin ən uca zirvə olduğundan danışıb, şəhidlərimizin qisasını layiqincə alan Azərbaycan Ordusunun güc və qüdrətindən qürur duyduqlarını deyiblər.

Məktəbin direktoru Oruc Hüseynov, şəhidin müəllimləri Vüqar Vəliyev, Bəxtiyar Babayev, İzzət Məmmədov sevimli və unudulmaz şagirdləri haqqında xatirələrini tədbir iştirakçıları ilə bölüşüblər.

Məktəblilər şəhidlərə həsr olunmuş şeirlər söyləyib, "Günnüt zəfəri" videoçarxı nümayiş olunub, Gəncə qarnizonu Zabitlər Evinin "Vətən uğrunda!" səyyar təşviqat dəstəsi bütün tədbirlər zamanı fəaliyyət göstərib.

Polkovnik Abdulla Qurbani Müdafiə Nazirliyinin adından məktəb kitabxanasına 100-dən artıq hərbi vətənpərvərlik mövzusunda kitab və albomlar hədiyyə edib.

Sonra şəhidin atası Əli Tatarov bütün şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə və tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Samir HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 134
Nüsxə 3950